# "Türkiyə-Azərbaycan enerji əməkdaşlığı ortaq strategiyanın institusionallaşmasının göstəricisidir"

**"Türkiyənin 2029-cu ildən etibarən Azərbaycandan 15 il müddətinə hər il 2,25 milyard kubmetr olmaqla ümumilikdə 33 milyard kubmetr təbii qaz tədarükünü nəzərdə tutan yeni saziş klassik enerji müqaviləsindən qat-qat geniş mənaya malikdir. Abşeron yatağından hasil ediləcək bu qaz təkcə Türkiyənin enerji təchizatı təhlükəsizliyini möhkəmləndirmir, eyni zamanda Ankara-Bakı xətti üzrə uzun illərdir formalaşan strateji birliyin institusional və geri dönməz mərhələyə keçdiyini nümayiş etdirir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında beynəlxalq münasibətlər üzrə türk ekspert Mehmet Emir Aksoy bildirib. Onun sözlərinə görə, bu razılaşma Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həyata keçirdiyi uzaqgörən enerji diplomatiyasının növbəti mühüm halqasıdır: "Bakı enerji resurslarını yalnız iqtisadi gəlir mənbəyi kimi deyil, eyni zamanda geosiyasi tarazlıq aləti kimi istifadə etmək bacarığını uzun illərdir uğurla nümayiş etdirir. TANAP, TAP və Bakı-Tbilisi-Ceyhanla başlayan proses bu gün Abşeron yatağı vasitəsilə Türkiyəyə yönələn uzunmüddətli qaz tədarükü ilə yeni strateji dərinlik qazanır".

Ekspert bildirib ki, Türkiyə baxımından bu saziş yalnız enerji təhlükəsizliyini təmin edən tədarük addımı deyil, həm də geosiyasi müstəqillik imkanlarının genişləndirilməsi deməkdir. "Qlobal enerji bazarlarının kövrəkliyi, Rusiya-Ukrayna müharibəsi ilə bağlı Avropada yaranmış təchizat böhranları və Yaxın Şərqdə davam edən qeyri-müəyyənliklər fonunda Türkiyənin dost və müttəfiq ölkə vasitəsilə uzunmüddətli və proqnozlaşdırıla bilən enerji xətti formalaşdırması strateji zərurətə çevrilib. Bu kontekstdə Azərbaycan təkcə tədarükçü deyil, etibarlı strateji tərəfdaş kimi önə çıxır. Bu razılaşmanı sadəcə iki ölkə arasında bağlanmış adi müqavilə kimi qiymətləndirmək düzgün olmazdı. Burada əsas məqam illərdir siyasi diskursda səsləndirilən "iki dövlət, bir millət" konsepsiyasının real dövlət siyasətinə çevrilməsinin davamıdır. Enerji, müdafiə, nəqliyyat və diplomatiya sahələrində paralel şəkildə dərinləşən bu inteqrasiya Ankara-Bakı xəttini regional güc mərkəzinə çevirir", - deyə ekspert vurğulayıb.

Mehmet Emir Aksoy qeyd edib ki, Prezident İlham Əliyevin apardığı balanslı, lakin qətiyyətli xarici siyasət Azərbaycanın yalnız hərbi deyil, enerji və diplomatiya sahələrində də oyunqurucu aktora çevrilməsinə imkan yaradıb. Türkiyə ilə imzalanmış bu uzunmüddətli qaz sazişi Azərbaycanın regional sabitliyi önə çəkən yanaşmasının iqtisadi və strateji təzahürüdür. Eyni zamanda bu addım Cənubi Qafqazda Türkiyə-Azərbaycan mərkəzli yeni geosiyasi oxun möhkəmləndiyini təsdiqləyir.

Ekspertin fikrincə, qarşıdakı illərdə bu əməkdaşlıq yalnız qaz tədarükü ilə məhdudlaşmayacaq. Enerji ticarətindən regional enerji mərkəzinə çevrilmə hədəfi Türkiyənin enerji qovşağı kimi rolunu gücləndirəcək, Azərbaycanın isə Avropa və Avrasiya enerji balansındakı əvəzsiz mövqeyini daha da möhkəmləndirəcək.

Azərbaycan.- 2026.- 6 yanvar (№1).- S.7.